# ERMƏNİSTANIN EKOSİD CİNAYƏTLƏRİ

Səyyad MƏCİDOV*

**Xülasə:** Məqalədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində törətdiyi ekoloji terror, təbii sərvətlərin, faydalı qazıntıların qeyri-leqal istismarı, regionun və dünyanın ekoloji təhlükəsizliyinə ciddi xələl gətirən qanunsuz əməllər və ekosid cinayətləri araşdırılmışdır. Eyni zamanda, geosiyasi və beynəlxalq hüquqi nəticələr doğuran ciddi məsələlərdən biri kimi azərbaycanlı aktivistlərin, vətəndaş cəmiyyəti fəallarının Laçın-Xankəndi yolunda erməni ekoloji terroruna və ermənilərin ekosid cinayətlərinə qarşı etiraz aksiyasına da diqqət yetirilir. Sonda belə nəticəyə gəlinir ki, Ermənistanın bütün ekoloji cinayətləri, o cümlədən ekosid cinayəti nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqaz regionunun və Avrasiya məkanının ekoloji tarazlığının əhəmiyyətli dərəcədə pozulması ilə nəticələnmişdir.

***Açar Sözlər:*** *Ekosid, Ekoloji Terror, Ermənistanın Ekoloji Cinayətləri, Beynəlxalq Hüquqi Məsuliyyət*

**The Crimes of Ecocide of Armenia**

**Abstract:** The article examines environmental terrorism, illegal exploitation of natural resources and minerals, illegal acts and ecocide crimes that seriously harm the ecological security of the region and the world, committed by Armenia in the territories of Azerbaijan occupied by Armenia. At the same time, attention is paid to the protest action of Azerbaijani activists and civil society activists against Armenian environmental terrorism and ecocide crimes of Armenians on the Lachin-Khankendi road as one of the serious issues that have geopolitical and international legal consequences. In the end, it is concluded that all environmental crimes of Armenia, including the crime of ecocide, resulted in a significant violation of the ecological balance not only of Azerbaijan, but also of the entire South Caucasus region and the Eurasian space.

***Key Words:*** *Ecocide, Ecological Terrorism, Ecological Crimes Of Armenia, İnternational Legal Responsibility.*

## Giriş

Bəşəriyyəti narahat edən beynəlxalq cinayətlərdən biri də ekosid cinayətidir. Biz bu məqalədə beynəlxalq hüquqda ekosid cinayətinin mahiyyətini, həmçinin Ermənistanın regionun və dünyanın ekoloji təhlükəsizliyinə ciddi xələl gətirən ekosid, ekoloji terror, təbii sərvətlərin, faydalı qazıntıların qeyri-leqal istismarı və digər transmilli cinayətlərini araşdıracağıq. Eyni zamanda, Laçın-Xankəndi yolunda geosiyasi və beynəlxalq hüquqi nəticələr doğuran ciddi məsələlərdən biri kimi azərbaycanlı aktivistlərin, vətəndaş cəmiyyəti fəallarının erməni ekoloji terroruna və ermənilərin ekosid cinayətlərinə qarşı etiraz aksiyası bütün dünyanın diqqət mərkəzində olmuşdur. Problemin elmi-nəzəri və praktiki baxımdan əhəmiyyətini nəzərə alaraq, bu məqalədə ermənilərin Azərbaycan ərazilərində törətdikləri ekosid cinayətlərinin konseptual məsələləri və bu qeyri-qanuni əməllərə münasibətdə beynəlxalq hüquqi məsuliyyətin bəzi mühüm aspektlərini təhlil etməyi zəruri hesab edirik.

## 1. "Ekosid" Nədir?

Eekosid beynəlxalq hüquqda XX əsrin ortalarından sonra elmi dövriyyəyə daxil olmuş və hazırda onunla bağlı konsepsiya aktiv şəkildə inkişaf etdirilməkdədir. Ekosid termini ilk dəfə Vyetnam müharibəsində ABŞ-ın kimyəvi silahdan istifadə etməsi nəticəsində ortaya çıxan vəhşilikləri təsvir etmək üçün beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirilmişdir. Bu terminin elmi cəhətdən ilk istifadəsi professor Artur V. Qalstonun adı ilə bağlıdır. O, ABŞ-ın Vyetnamdakı kimyəvi müharibə taktikasını "ekosid" termini vasitəsilə ifadə edərək, "ekosidin qadağan edilməsi üçün yeni beynəlxalq müqavilə" kampaniyasına başlamışdır. (Gauger and others, 2012: 5)

"Ekosid" termininin yunancadan tərcümədə hərfi mənası "oikos" – ev və "caedere" – yıxmaq və ya öldürmək mənasını verir. Əslində, ekosidlə bağlı 1950-ci illərdə Qalston tərəfindən başladılan kampaniya kimyəvi silahların Vyetnam müharibəsində kütləvi insan

* Dos. Dr. Bakı Avrasiya Universiteti, Hüquq Elmləri Üzrə Fəlsəfə Doktoru, e-mail: sayyad.macid@mail.ru.

tələfatına səbəb olması, insanların sağlamlığını və ətraf mühiti kütləvi surətdə və dəhşətli dərəcədə məhv etmək üçün necə istifadə edildiyi ilə bağlı qlobal çağırışlar idi.

Dr. David Zierler yazır ki, bir qrup amerikalı alimin "ekosid"i qadağan etmək üçün başladığı bu hərəkatın kökü hələ 1940-cı illərdən başlamışdır. Daha sonra, 1961-ci ildə ABŞ-ın Cənubi Vyetnamla birgə missiyası olan Ranch Hand əməliyyatı ilə düşmən ərazisini defoliasiya etmək üçün herbisid müharibəsindən istifadə olunması, dünya ekologiyasının korlanması, ətraf mühitə və sağlamlığa uzunmüddətli təsirlərinə qarşı etirazlar edildi. Etiraz edən alimlərdən A. Qalston 1970-ci ildə Müharibə və Milli Məsuliyyət haqqında Konfransdakı çıxışında İkinci Dünya Müharibəsinin bitməsindən sonra qüvvəyə minən soyqırım cinayəti ilə Vyetnam müharibəsindən sonra törədilmiş ekosid cinayəti arasında zəruri paralellər aparırdı. (Zierler, 2011: 102). Əlbəttə, özünün ictimai təhlükəliliyi baxımından ekosid cinayətinin digər sülh və insanlıq əleyhinə cinayətlərlə bərabər tutulması ilə bağlı professor Artur Qalstonun haqlı mövqeyi ilə tamamilə razılaşmaq mümkündür. Çünki, ekosidin qlobal təhlükəsizliyə və sülhə vurduğu ziyan və ölümcül zərbələr heç də digər beynəlxalq cinayətlərdən az deyildir.

Ekosidlə bağlı bəzi rəsmi dairələr də bu hüquqazidd əmələ qarşı ciddi münasibət sərgiləmişlər. Belə ki, 1972-ci ildə BMT-nin İnsan və Ətraf Mühitə dair Stokholm Konfransında İsveçin Baş naziri Olof Palme giriş nitqində Vyetnam müharibəsini açıq şəkildə "ekosid" kimi dəyərləndirmiş (Björk, 1996: 15) və ekosid teriminin ilk dəfə rəsmi istifadəsini reallaşdırmışdır.

**2. Cinayətin Tərkibi**

Professor Richard A. Falk 1973-cü ildə Ekosid cinayəti haqqında Beynəlxalq Konvensiya layihəsi hazırladı. Bu Konvensiya layihəsi ekosid cinayətinin tərkibini təşkil edə biləcək bir sıra hərəkətləri özündə ehtiva edir: a) kütləvi qırğın silahları, nüvə, bakterioloji, kimyəvi və ya digər silahların tətbiqi; b) hərbi məqsədlər üçün təbii meşələrin defoliasiyası və qırılması üçün kimyəvi herbisidlərin istifadəsi; c) torpağın keyfiyyətini pisləşdirəcək və ya insanlar, heyvanlar və bitkilər üçün təhlükəli xəstəliklərin inkişaf perspektivini gücləndirəcək miqdarda, sıxlıqda və ya ölçüdə bomba və artilleriyadan istifadə edilməsi; d) böyük meşə sahələrini və ya əkin sahələrini hərbi məqsədlərlə məhv etmək üçün buldozer texnikasından istifadə; e) müharibə silahı kimi yağışların miqdarını artırmaq, azaltmaq və ya hava şəraitini başqa cür dəyişdirmək üçün nəzərdə tutulmuş üsullardan istifadə; f) hərbi və ya sənaye məqsədlərini sürətləndirmək üçün insanların və ya heyvanların məskunlaşdıqları yerlərdən zorla çıxarılması (Peter, 2021: 3).

Ekosid cinayəti haqqında Beynəlxalq Konvensiya Layihəsinin 1-ci maddəsinə əsasən "Razılığa gələn Tərəflər təsdiq edirlər ki, ekosid istər sülh, istərsə də müharibə dövründə törədilməsindən asılı olmayaraq, beynəlxalq hüquqa görə cinayətdir və tərəflər üzərlərinə onun qarşısını almaq və cəzalandırmaq öhdəliyini götürürlər.

Qeyd olunduğu kimi, müasir dünyada ekosid ən təhlükəli cinayətlərdən biridir. Bu əməl "ən dəhşətli iqlim pozuntularına" səbəb olur və ətraf mühitə vurula bilən müxtəlif digər fəaliyyətlər də bu terminin təsiri altına düşür.

Ekosid cinayəti ilə bağlı bu günə qədər hər hansı rəsmi qəbul olunmuş beynəlxalq konvension anlayış olmasa da, müasir beynəlxalq hüquqa görə bu cinayətin kifayət qədər geniş konseptual əsasları formalaşmışdır.

Beynəlxalq hüquqda ekosid cinayəti dedikdə, qlobal ekoloji tarazlığı pozan, ətraf mühitə ciddi, geniş həcmdə və ya uzunmüddətli ziyan vurulması ilə xarakterizə olunan və ekologiyanın kütləvi məhvinə səbəb olan beynəlxalq hüquqazidd əməllər başa düşülür.

**3. Roma Statutuna "5-ci Cinayət" Təklifi**

Son illər hətta bəzi beynəlxalq qurumlar və elmi dairələr bu cinayəti sülh əleyhinə 5-ci cinayət əməli kimi də xarakterizə edirlər. 2008-ci ildə hüquqşünas Polli Hiqqins "təbii

dünyanı qoruyan gülləkeçirməz hüquqi baza hazırlamaq" missiyasına başlamışdır. O, 2010-cu ildə Beynəlxalq Hüquq Komissiyasına verdiyi təklifdə "ekosid" cinayətini Roma Statutuna daxil etmək üçün bu sənəddə dəyişikliklər edilməsi ilə bağlı ilk təşəbbüslə çıxış etmişdir.

2020-ci ilin noyabr ayında İsveçdəki hakim partiyaların maraqlı parlamentarilərinin müraciəti əsasında "Stop Ekosid" Fondu tərəfindən Ekosidin hüquqi tərifi üzrə Müstəqil Ekspert Paneli çağırılmışdır. Panel "ekosid" cinayətinin praktiki və effektiv tərifini hazırlamaqla altı ay birlikdə çalışmışdır. Ekosidin beynəlxalq cinayət kimi tərifinin əsas mətni üzrə konsensus 2021-ci ilin iyun ayında əldə edilmişdir. (Independent, 2021) Əsas məqsəd budur ki, beynəlxalq maraq və aktuallıq kəsb edən ekosid cinayəti ilə mübarizənin və artıq beynəlxalq narahatlıq doğuran ciddi ekoloji zərərin müdafiəsini genişləndirməyin vaxtı çatıb və təklif olunan konsepsiya Roma Statutuna düzəlişin nəzərdən keçirilməsi üçün əsas ola bilər. Lakin bütün bunlara baxmayaraq, indiyə qədər ekosid cinayəti heç bir qüvvədə olan konvension beynəlxalq cinayət normalarına əlavə edilməmişdir.

Ekosid cinayətinin sülh əleyhinə 5-ci cinayət kimi qəbul edilməsi təşəbbüslərinin bir sıra mühüm səbəbləri mövcuddur. BMT 11 il ərzində məhz sülh əleyhinə cinayət kimi tanınması üçün ekosid cinayəti üzərində işləmiş, onun müvafiq strukturları tərəfindən iqlim dəyişikliyinin insan hüquqlarına təsirləri, ekoloji qaçqınlar və ətraf mühitin məhv edilməsi ilə bağlı müddəalar irəli sürülmüşdür. 22 iyun 2021-ci ildə "Stop Ekosid" Fondunun Müstəqil Ekspert Qrupu ekosidin beşinci beynəlxalq cinayət kimi müəyyən edilməsi və soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayəti ilə yanaşı Roma Statutuna daxil edilməsi ilə bağlı yeni təklif irəli sürmüşdür.

Ekosid cinayəti ilə bağlı Roma Statutuna 8 ter maddəsinin əlavə olunması ilə bağlı layihə təklifi irəli sürülmüş, ekosidin anlayışı və digər yurisdiksiya şərtləri ilə bağlı bu sənədə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Təklif olunan tərif bu əməlin "ekosid" hesab edilməsi üçün iki həddi müəyyən edir: 1) Əməl ətraf mühitə ciddi və ya geniş yayılmış, yaxud da uzunmüddətli ziyan vurmalıdır; 2) Bundan əlavə, əməl qeyri-hüquqi (həm milli, həm də beynəlxalq səviyyədə) və ya qeyri-əxlaqi olmalıdır. Ekosid cinayətinin sülhə qarşı beşinci cinayət kimi tanınması ətraf mühitin deqradasiyası ilə mübarizəyə müxtəlif yollarla kömək edərdi: 1) Ətraf mühitə vurulan zərərin Roma Statutuna və beləliklə, beynəlxalq cinayət hüququna daxil edilməsi; 2) İqlim dəyişikliyi ilə bağlı fərdi şüurun dəyişməsi; 3) Korporasiyaların daha davamlı və ətraf mühitə uyğunlaşaraq öz biznes modellərini dəyişməli olması; 4) Ən çox icmalara təsir edən iqlim ədaləti.

Statuta əlavə edilməsi təklif olunan 8 ter maddəsinin ("Ekosid") layihəsinə görə, "bu Statutun məqsədləri üçün "ekosid" dedikdə, ətraf mühitə ciddi və ya geniş yayılmış və ya uzunmüddətli ziyan vurma ehtimalının böyük olduğunu bilə-bilə törədilmiş qanunsuz və ya məqsədəuyğun olmayan hərəkətlər başa düşülür".

Qeyd olunmalıdır ki, bu gün ekosid cinayəti Roma Statutuna daxil edilməsə də, bəzi dövlətlər ekosid konsepsiyasını öz Cinayət Məcəllələrinə transformasiya ediblər. (Ecocide, 2012) Belə ki, Vyetnam uzun müharibə təcrübələrinin nəticəsi olaraq, öz milli qanunlarına ekosid cinayətini daxil edən ilk dövlət oldu. Avropa Parlamenti 2019-cu ildə Dünyada İnsan Haqları və Demokratiya ilə bağlı hesabatına düzəliş edərək, Aİ və Üzv Dövlətləri Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna əsasən ekosidin beynəlxalq cinayət kimi tanınmasını təşviq etməyə çağırıb. Kanada, Lüksemburq, Niderland kimi ölkələr bu konsepsiyanı dəstəklədiklərini bəyan edirlər. Bundan əlavə, Rusiya, Belarus, Moldova, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Gürcüstan və bəzi digər ölkələr ekosidi öz cinayət məcəllələrinə sülh əleyhinə cinayət kimi daxil ediblər.

### 4. Ermənistanın Ekosid Cinayəti

Ermənistan 30 ildən artıqdır ki, Azərbaycan ərazilərində ekosid cinayətləri törədib və hal hazırda da bu beynəlxalq cinayət davam edir. Eyni zamanda, ermənilərin bu cinayətlərinə görə beynəlxalq hüquqi məsuliyyət məsələsi də açıq qalır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfərdən sonra Ermənistanın transmilli cinayətləri ilə mübarizənin yeni mərhələsi başlanmışdır. Azərbaycan beynəlxalq hüquqla özünün ən mühüm haqlarından biri olan özünümüdafiə hüququnu reallaşdırmaqla Ermənistanın hərbi təcavüzünə son qoydu. Nəticədə işğal altında olan bir çox torpaqlarımız və təbii sərvətlərimiz üzərində suveren hüquqlarımız bərpa olundu. Lakin, Qarabağın bəzi ərazilərində hələ də erməni terror qruplarının kriminal faliyyətləri regionda təhlükəsizliyə, o cümlədən ekoloji təhlükəsizliyə təhdid olaraq qalmaqda davam edir. Bu isə əlbəttə, müasir beynəlxalq cinayət hüququ ilə məsuliyyət və cəza tələb edən bir sıra transmilli cinayətlərlə mübarizəni daha da aktual edir.

Ümumiyyətlə qeyd edilməlidir ki, son 30 il ərzində Ermənistanın beynəlxalq cinayətlərini törədilmə xarakterinə görə aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Ermənistanın hərbi təcavüz cinayəti; 2) Ermənistanın müharibə cinayətləri; 3) Ermənistanın soyqırımı və insanlıq əleyhinə cinayətləri; 4) Ermənistanın ekosid, biosid, urbisid və kulturosid cinayətləri; 5) Ermənistanın terror cinayətləri.

Bu beynəlxalq cinayətlər içərisində son illər daha geniş diapazonu ilə fərqlənən əməllərdən biri ermənilərin Azərbaycan ərazilərində törətdikləri ekosid cinayətləridir.

2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyasında Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, "Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər".

Eyni zamanda, Ermənistanın ekosid cinayətləri ilə bağlı Avropa Şurası tərəfindən də rəsmi mövqe bildirilmişdir. 26 yanvar 2016-cı ildə AŞ PA tərəfindən "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı 2085 (2016) saylı Qətnamə qəbul edilmişdir. Xüsusilə həmin sənədin 7-ci maddəsində qeyd olunur ki, "bu təcili humanitar problemi nəzərə alaraq, Assambleya tələb edir:

1. Ermənistan silahlı qüvvələrinin müvafiq regiondan dərhal çıxarılması, o cümlədən: 1) Yerində ətraflı araşdırma aparmaq üçün müstəqil mühəndislərin və hidroloqların çıxışı; 2) Sərsəng su ehtiyatlarının istifadəsi və saxlanmasının bütün su hövzəsi ərazisində qlobal idarə edilməsi; 3) suvarma kanallarına beynəlxalq nəzarət, Sərsəng və Madagiz bəndlərinin vəziyyəti, payız-qış mövsümündə suyun buraxılması qrafiki və sulu təbəqələrin həddindən artıq istismarı;

2. Ermənistan hakimiyyəti su ehtiyatlarından münaqişə tərəflərindən yalnız birinin xeyrinə siyasi təsir aləti və ya təzyiq vasitəsi kimi istifadəni dayandırmalıdır. (Resolution 2085, 2016) Lakin ölkə başçısının da qeyd etdiyi kimi, Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymamış və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etmişdir. Bu günə gədər də Ermənistan heç bir beynəlxalq qurum tərəfindən bu cinayətə görə cəzalandırılmayıb və ya hər hansı bir formada məsuliyyətə cəlb olunmayıb.

Ermənistan ekosidə görə beynəlxalq hüquqi məsuliyyəti isə maddi (kompensasiya) və cinayət məsuliyyəti formasında həyata keçirilməlidir. Dövlət olaraq Ermənistan və ekoloji cinayətlərdə təqsirli olan korporasiyalar və ya xarici şirkətlər maddi formada, onların rəhbərləri isə cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbirincə desək, "əgər bizim qızıl və digər yataqlarımızı

qanunsuz istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə gedəcəkdir. Əgər bu təzminatı ödəməsələr, bütün işlər gedəcək beynəlxalq məhkəmələrə və onlar orada biabır olacaqdırlar".

Bundan başqa, Ermənistan Qarabağ və ətraf rayonlarda misli görünməmiş dağıntılar törətmiş, şəhərləri və kəndləri dağıtmış, tarixi-dini abidələri yerlə-yeksan etmiş, qəbiristanlıqlara qarşı vandalizm aktları həyata keçirmişdir. Bu mənada Ermənistan həmçinin urbisid və kulturosid cinayətlərinin subyekti kimi çıxış edir. Ermənilər Azərbaycan ərazilərində meşələri yandırmış, suları çirkləndirmiş, flora və faunanı məhv etmiş və təbii sərvətləri amansızcasına istismar etmişlər. Buna görə də, bu gün Laçın-Xankəndi yolunda ekoloji fəallar və qeyri-hökumət təşkilatlarının nümayəndələri dinc etirazlar keçirməklə, Ermənistan tərəfindən təbii sərvətlərin qeyri-qanuni istismarına qarşı "Ekoloji cinayətlərə son!", "Ekoterrora son!", "Ekosidə yox! və s. şüarları səsləndirir və beynəlxalq ictimaiyyətin diqqətini bu qlobal problemə cəlb etmək istəyirlər.

Hazırda Azərbaycan milli cinayət qanunvericiliyinə ekosid cinayəti ilə müddəaların daxil edilməsi məsələsi daha da aktualdır. Eyni zamanda, Laçın- Xankəndi yolunda ermənilərin ekoloji cinayətlərinə etirazların edilməsi ilə əlaqədar ekosidlə bağlı elmi-praktiki müzakirələr davamlı xarakter almışdır. Beləki, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi Azərbaycan Respublikası Cinayət Məcəlləsində ekosid və urbisid əməllərinin kriminallaşdırılması ilə əlaqədar müvafiq olaraq 104-1 və 104-2-ci maddələrinin əlavə edilməsini təklif etmişdir. Həmçinin, hesab edilir ki, "Ermənistan hərbi siyasi rəhbərliyinin beynəlxalq qanunvericiliyə zidd olaraq ekologiyaya dəymiş olduqca böyük həcmli zərərin vurulması ilə nəticələnən davranışlarını Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" fəslində nəzərdə tutulan "Suyu (su mənbələrini) çirkləndirmə", "Atmosferi (havanı) çirkləndirmə", "Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə"yə görə, o cümlədən həmin Məcəllənin "Mülkiyyət əleyhinə cinayətlər" fəslində öz təsbitini tapan "Əmlakı qəsdən məhv etmə və ya zədələmə"yə görə cinayət məsuliyyəti nəzərdə tutan normaları ilə tövsif etmək qeyri-mümkündür. Odur ki, bu əməllər beynəlxalq cinayətlər kimi qiymətləndirilməli və Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" fəslində xüsusi norma şəklində təsbit edilməlidir". Hesab edirik ki, ekosid cinayəti ilə bağlı müddəanın Azərbaycan Cinayət Məcəlləsinə daxil edilməsi zamanın tələbi kimi çıxış edir. Cinayət Məcəlləsində anoloji cinayət əməllərinin ümumiləşdirilərək, "ekosid" adı altında unifikasiyasının həyata keçirilməsi və Məcəllənin VII fəslinə (Sülh və insanlıq əleyhinə cinayətlər) daxil edilməsi müasir beynəlxalq hüquq baxımından olduqca zəruridir.

Qeyd olunmalıdır ki, 2022-ci ilin 3-7 dekabr tarixlərində Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. 12 dekabr 2022-ci ildə isə Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə etiraz aksiyalarına başlanılmış və iki aya yaxındır ki, dinc aksiya davam edir.

**Nəticə**

Beynəlxalq hüquqda ekosid cinayəti dedikdə, qlobal ekoloji tarazlığı pozan, ətraf mühitə ciddi, geniş həcmdə və ya uzunmüddətli ziyan vurulması ilə xarakterizə olunan və ekologiyanın kütləvi məhvinə səbəb olan beynəlxalq hüquqazidd əməllər başa düşülür.

Ermənistanın bütün ekoloji cinayətləri, o cümlədən ekosid cinayəti nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqaz regionunun və Transxəzərin ekoloji tarazlığının əhəmiyyətli dərəcədə pozulması ilə nəticələnmişdir. Yekun olaraq qeyd edək ki, istər 2020-ci il 44 günlük müharibə zamanı Ermənistan tərəfindən müharibə aparılması qaydalarının kobud şəkildə pozulması nəticəsində, istərsə də müharibədən əvvəl və hərbi əməliyyatlardan sonra regionun ekoloji tarazlığına geniş miqyasda və kütləvi ziyan vurulmuşdur. Bu əməllər ekosid cinayəti kimi tövsif olunmaqla, Ermənistanın beynəlxalq məsuliyyətinu labüd etmişdir.

**ƏDƏBİYYAT**

A Gauger and others. (2012), T*he Ecocide Project: Ecocide is the missing 5th Crime Against Peace* . Human Rights Consortium, London, p.5.

David Zierler. (2011), *The Invention Of Ecocide: Agent Orange, Vietnam, and the Scientists who changed the way we think about the Environment* (University of Georgia Press, Georgia, p.102.

Ecocide is the missing 5th Crime Against Peace, The Ecocide Project, Human Rights Consortium, School of Advanced Study, University of London, July 2012, https://www.academia.edu

Independent Expert Panel for the Legal Definition of Ecocide. Commentary and core text, June 2021, https://static1.squarespace.com

*Nations Conference on Human Environment 1972.* Department of Political Science, University of Stockholm. p.15.

Peter Doran, Rachel Killean, Mary-Carmen McDermott, Karina McErlean, Lydia Millar and Stephanie Rodgers, (2021) ‘*Criminialising ‘’Ecocide’’ at the International Criminal Court’* EJNI Student working paper series No.1, p.3

Resolution 2085 (2016), Inhabitants of frontier regions of Azerbaijan are deliberately deprived of water, https://assembly.coe.int

Tord Björk, (1996) *The emergence of popular participation in world politics: United*